# «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Makedoniya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 22 iyun 2010-cu il***

***№ 971***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2010-cu il, № 6 (156), maddə 532) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*